Uşaq evinin "Azəri" milli rəqs ansamblı 15 ölkənin iştirakı ilə keçirilən beynəlxalq festivalda uğurla çıxış edib və tamaşaçıların rəğbətini qazanıb. Rəngarəng və maraqlı çıxışlarına görə uşaq evinin yetirmələri festivalda fəxri fərman və medallarla təltif olunublar.

Onu da qeyd edək ki, uşaqlar əvvəlcədən seçilmiş ailələrdə yerləşdiriliblər. Festivalın son günü Qaziemir bələdiyyəsinin başqanı Xəlil İbrahim Şenol festivalda iştirak edən ölkələrin nümayəndələri ilə görüşüb. Azərbaycanlı uşaqlar bələdiyyə başqanına xatirə hədiyyələri təqdim ediblər.

Festivalın təşkilatçıları uşaqlar üçün ən görməli yerlərə gəzintilər də təşkil ediblər. Belə ki, uşaq evinin yetirmələri İzmirin ən məşhur heyvanat parkında, Egey dənizi gəzintisində, "Uzay-Space Kamp" beynəlxalq astronomik, aerokosmik texnologiya, kosmik tədqiqatlar tədrisi mərkəzində olub və müqəddəs Məryəmin məzarını ziyarət ediblər.

Uşaqlar digər ölkələrdən gəlmiş festival iştirakçıları ilə yaxından ünsiyyət qurub və onlara Heydər Əliyev Fondu tərəfindən hazırlanmış "Qarabağ həqiqətləri" kitablarını və Xocalı soyqırımını əks etdirən diskləri təqdim ediblər.